Leyla Cavid qızı Seyidkamilova [48]

# MİR CƏLAL HEKAYƏLƏRİNDƏ MƏNƏVİ-ƏXLAQİ İDEYALAR

**Giriş.** Mir Cəlal yaradıcılığında müasirlik, real həyata fəal müdaxilənin yüksək sənətkarlıqla təsviri əsasdır, aparıcıdır. Onun əsərlərinin əksəriyyəti canlı müşahidənin, böyük təəssüratın bilavasitə ifadəsi idi. 30-cu illərin Azərbaycan hekayəsində nəzərə çarpan mövzu genişliyi, öz növbəsində, forma rəngarəngliyi doğururdu. Bunun nəticəsi idi ki, Mir Cəlal yaradıcılığında satirik, romantik və lirik hekayələrin bir sıra dəyərli nümunələri yaranmışdır. Mir Cəlal öz əsərlərinin mövzusunu müasir həyatdan, alaraq cəmiyyətdəki eybəcərliklərini, əxlaqsızlığı və əyriliyi ifşa edirdi. Mir Cəlal hekayələrinin əsas məğzini mənəvi-əxlaqi problemlər təşkil edir. Ədibin yaradıcılığında hekayə aparıcı janrdır. Ədibin hekayələri yaradıcılığı nə qədər zəngin, mövzu dairəsi əhatəlidirsə, oradakı obrazlar aləmi də o qədər rəngarəngdir.

**Əsas hissə.** Mir Cəlal zəngin ədəbi-bədii irsi ilə Azərabyacan ədəbiyyatında öz layiqli yerini tutmuş böyük sənəkarlardandır. Mir Cəlal yaradıcılığı yaşadığı əsrin ədəbi mühitini bütün gerçəklikləri ilə əks etdirdiyi üçün daha çox müasir ədəbiyyatşünaslığın marağına səbəb olmaqdadır. Mir Cəlal hekayələrini qələmə alarkən mövzuları real, müasir həyatdan götürürdü. Mir Cəlal yaradıcılığının qayəsini mənəvi zənginliyə, saf əxlaqa sahib kamil insan yetişdirmək arzusu təşkil edir. Yaradıcılığı boyu tərbiyəçi olan, qələmə aldığı əsərləri ictimai-əxlaqi problem kimi işıqlandırmaq nöqteyi-nəzərindən maraqlıdır. “Mir Cəlal mahir hekayə ustasıdır; onun hekayələri əksəriyyətlə yığcam və ibrətlidir. Yazıçı hər bir hekayəsində müəyyən ibrətli bir hadisədən bəhs edir və tərbiyəvi nəticə çıxarmağı oxucunun öz öhdəsinə buraxır” [6, s. 493].

**Əsas hissə.** Kamil insan yetişdirmək, tərbiyə etmək üçün zəruri sayılan bir çox tədbirlər, mənəvi-əxlaqi amillər ədibin hekayələrində öz əksini tapmışdı. Usta sənətkar hekayələrində ağıllı, tərbiyəli, namuslu övlad, əsl vətəndaş yetişdirmək istəyən, bunun üçün çalışan, müxtəlif yollar axtaran zəhmətkeş valideynlərin, müəllim-tərbiyəçilərin yaddaqalan obrazlarını yaratmışdır. Ümumiyyətlə, ədib tərbiyə-əxlaq məsələlərilə bağlı elə mövzular seçir, elə hadisə və surətlər qələmə alır ki, onlar insanı mənəviyyatca saflaşdırıb yüksəldirdi. Böyük pedaqoq Mir Cəlal üçün tərbiyə məsələsi xüsusi əhəmiyyət kəsb edirdi. Hekayələri oxuduğumuz zaman yazıçının məqsədini, ictimai baxışını, məsələyə münasibətini gizlətmədiyini, bitərəf, yaxud qeyri-müəyyən mövqe tutmadığının şahidi oluruq. Müəllifin tendensiyası əsasən hadisələrin mahiyyətindən, obrazların səciyyəsindən, süjetin inkişaf istiqamətindən yaranmış olur. Məsələn, “Əsgər oğlu”, “Ulduz”, “Plovdan sonra”, “Elçilər qayıtdı”, “Nazik mətləb”, “Naxış”, “Vicdan mühakiməsi”, “Ehtiram”, “Müdafiə vəkili”, “Subaylıq fəlsəfəsi” və s. hekayələri bu cəhətdən maraqlıdı.

“Əsgər oğlu” hekayəsində Ehtiyat xala və nəvəsi məktəbli Hafizlə tanış oluruq. Bu iki surətin simasında mənəvi-əxlaqi dəyərlərin dərinliyini, nənə-nəvə münasibətinin gözəlliyini görür, sağlam tərbiyənin maraqlı mənzərəsi ilə qarşılaşırıq. Nənə-nəvə münasibətindəki səmimiyyət, qayğıkeşlik və həssaslıq “Naxış”, “Ehtiram” hekayələrində nəzərə çatdırılmışdır. Ədib həmçinin yanlış tərbiyə üsulunun, ifrat məhəbbət hissinin mahiyyətini, acı nəticələrini qələmə aldığı hekayələrdə bütün reallığı ilə əks etdirmişdir. “Plovdan sonra” adlı hekayədə Ərknaz xanımın davranış və hərəkətlərinin yeganə övladı Ramizin tərbiyəsinə necə mənfi təsir göstərdiyinin, onu yanlış yola saldığının şahidi oluruq. Ramiz orta məktəbi zorla bitirib, qeyri-qanuni şəkildə - “köməklə” instituta girirsə də, oxuya bilmir. Çünki savadı yoxdur, elm öyrənməyə, ümumiyyətlə oxumağa həvəsi yoxdur. Ramizin nə əməyə məhəbbəti var, nə də həyata ciddi yanaşır. Ərknaz xanım oğluna nəyinki düzgün tərbiyə vermis, qabiliyyətinə yaxşı bələd olduğu halda, həmişə onu müəyyən məqsədlə ağızdolusu tərifləmişdi. Övladın düzgün tərbiyəsi haqqında olmayan, ərköyün övlad yetişdirən Ərknaz xanımın özü əslində tənqid və islaha möhtacdır. Lakin hekayədə məqsəd Ərknaz xanımları islah etməkdən daha çox, onların hansı tərbiyə üsuluna əl atdıqlarını, necə övlad böyütdüklərini əyani göstərmək, ifşa etməkdir. Hekayədə Ərknaz xanımın oğlunun ancaq yemək-içmək qayğısına qaldığı, hər nazı ilə oynadığı, hər arzusunu yerinə yetirdiyi göstərilir. Ərknaz xanımın Ramizi Moskvaya oxumağa da xüsusi “dəm-dəsgahla” yola salması “puldan özünə korluq vermə” deyə ona “sərbəstlik” yaratması, reaktiv təyyarədə arxasınca tez-tez zəfəranlı plov göndərməyə qədər bir çox tədbirə əl atması nəzərimizdən yayınmır. Göründüyü kimi, Ramizin avara, bacarıqsız bir gənc kimi yetişməsində günahkar ilk növbədə anadır, onun ölçüsüz sevgisi, yalançı tərifidir. Bu məqamda böyük rus pedaqoqu A.Makarenkonun tərbiyə haqqında fikirləri yerinə düşür: “Valideynlər həmişə, hər şeydən əvvəl, bu tərbiyə işinin əhəmiyyətini və həmin iş üçün daşıdıqları böyük məsuliyyəti yadda saxlamalıdırlar” [5, s. 341]. “Plovdan sonra” adlı hekayədən də gördüyümüz kimi bu məsələyə xüsusi diqqət yetirən yazıçı hekayədə müsbət idealı daha çox mənfi hallara tənqidi münasibət əsasında ifadə edir. Ərknaz xanımların səciyyəsini, tərbiyə üsullarının yanlışlığını göstərməklə valideynləri övlad böyütmək işində həssaslığa, məsuliyyət daşımağa, diqqətcil olmağa, həyatın, cəmiyyətin tələblərini nəzərə almağa, düzgün və səmərəli tədbirlər tətbiq etməyə çağırır. Mir Cəlal böyük pedaqoq kimi övlad böyütməyi, cəmiyyətə və xalqa layiq tərbiyə etməyi həmişə böyük və məsuliyyətli iş sayırdı. Buna görə də tərbiyə məsələsinə əhəmiyyət verməyənləri, övlad - valideyn münasibətini qeyri-normal hala salanları, təmiz əxlaq və yaşayış prinsiplərini pozanları öz əsərlərində tənqid atəşinə tutmağı özünə borc bilirdi.

Pedaqoji araşdırmalara əsasən övlad-valideyn arasındakı qarşılıqlı münasibətin möhkəm inama, dərin səmimiyyətə və məhəbbətə əsaslanmalıdır. Görkəmli rus yazıçısı V.Belinskinin də dediyi kimi, “valideyn elə olmalıdır ki, övlad öz qəlbinin ən kiçik arzusunu da ondan gizlətməsin, bir sevinc və ya dərdi olanda, bir pis iş tutanda, başına bir pis fikir gələndə ən əvvəl onun yanına gəlsin, ondan məsləhət, kömək, təsəlli umsun” [1, s. 124].

---

[48] Bakı Dövlət Universitetinin magistrantı. leylaseyidkamilova4@gmail.com

“Ulduz” hekayəsində Qələndər Qələndərov adlı obraz isə bir ata, bir insan kimi nöqsanlıdır. O, Böyükxanımı günahı olmadan atıb başqası ilə evlənmiş, yeganə oğlu Ulduzun taleyi ilə maraqlanmamışdı. Körpə ikən anasını itirən Ulduz səkkiz il uşaq evində qalmış, atasının yanına gətirildikdən sonra da ondan qayğı və nəvaziş görməmişdi. Ulduz məktəbdə düzgün tərbiyə, təhsil almış, onda düzlük, mərdlik və çalışqanlaq kimi mənəvi keyfiyyətlər formalaşmışdı. Xoşbəxtlikdən onun həyatında məktəbin, sağlam kollektivin, mehriban müəllim və yoldaşların təsiri həlledici olmuşdu. Çünki, Ulduz əyyaş atadan hansı tərbiyəni ala bilərdi. Ulduz ailədəki dözülməz vəziyyəti görüb, onlarla əlaqəni kəsməyə ehtiyac duymuş, məsələyə düşgün yanaşmağı bacarmışdı. O, başa düşmüşdü ki, belə bir evdə, əyyaş ata yanında qala bilməz, buradan mütləq uzaqlaşmalıdı. Müəllif obrazın həyatındakı yeni mərhələni - Ulduzun yataqxanada yaşayıb zavodda işləməsini, hörmət sahibi olmasını hekayədə ətraflı işıqlandırmağa ehtiyac duymur. Qısa məlumat verməklə kifayətlənir. Hekaydə əsas məqsəd Ulduzun mənəvi-əxlaqi ləyaqətini işıqlandırmaqdan ibarətdir.

Hekayədə faciəsi canlandırılan Qələndərovun Ulduzu axtarıb tapmaq və evə qaytarmaq təşəbbüsü iki cəhətdən əsaslandırılır. Qələndərov bir insan, bir ata kimi səhvini başa düşüb əzab çəkdiyinə görə yox, məktəbin tələbindən, xidmət yerində məsuliyyət daşımalı olacağından qorxduğu üçün, həm də yeni evləndiyi qadının bir gün ev-eşiyi yığışdırıb aparacağından ehtiyat etdiyi üçün Ulduzu tapıb qaytarmağa çalışır. Qələndərovun özünü tənha və qaranlıq bir uçurum qarşısında hiss etməsi də bu cəhətlərlə əlaqədardı. Lakin yazıçı məsələnin mahiyyətini dərinləşdirir. Ulduzun evə qayıtmaqdan imtina etməsi Qələndərova ağır təsir bağışlayır. Nəhayyət, o, doğma oğlunun nifrətinə layiq olacağını görüb mənəvi əzab çəkir. Qələndərov kimi bir atanın timsalında bu cür keyfiyyət dəyişikliyinin təsviri insanın həyatdan aldığı dərslərdən mənəvi təkamül keçirə bildiyinin əyani sübutudur.

Tərbiyə probleminə düzgün münasibət “Vicdan mühakiməsi” hekayəsində öz bədii inikasını tapmışdır. Hekayədə ictimai həyat prinsipləri, əxlaq normaları, mənəvi-psixoloji amillər işıqlandırılmışdır. Vicdan məsələsini, analıq haqqını, tərbiyə problemini real həyat haisələri əsasında canlandıran hekayə oxucunu düşünməyə yönəldir. Hekayə Həsrətin anası Nazilənin həyat tarixçəsi ilə başlayır. Yetim böyümüş Nazilə on səkkiz yaşına çatanda mehriban və yaraşıqlı bir oğlana - Nadirə aşıq olur. Nazilə və Nadirin rəsmi nigahı yox idi, aralarındakı əlaqə və münasibətdən çoxları xəbərsiz idi. Nadir xidmət etdiyi əsgəri hissənin başqa yerə köçdüyünü və özünün bir neçə ayadək mütləq qayıdacağını Naziləyə bildirib getmişdi. Vaxt keçmiş, müharibə başlanmış, Nadirdən hələ də səs-soraq yox idi. Nazilə ana olmağa hazırlaşırdı, nəhayət uşaq da müharibənin getdiyi ağır bir zamanda dünyaya gəldi. El içində rüsvay olmaqdan qorxan Nazilə oğlunu qoyub kənddən ayrılmışdı. Məqsədi Nadiri axtarıb tapmaq, ondan kömək almaq idi. Lakin vağzalda gördüyü gərgin vəziyyət onun yeni fikrə gəlməsinə səbəb olur. Nazilənin hərbi paltar geyərək cəbhədən gələn yaralı vaqonlarında sanitar işləməyə başlayır, müxtəlif çətinliklərlə qarşılaşır, qorxmaz döyüşçüyə çevrilir, hər bir yaralı əsgəri sağaltmaq üçün əlindən gələni edir. Ağır döyüş şəraiti ona çox şey öyrədir, onun iradəsini möhkəmləndirir, xarakterini dəyişir. Müəllif göstərir ki, Nazilə dəyişib yetkinləşir, tamam başqa bir qadın olur. Nazilə Nadirin döyüşdə həlak olduğundan xəbər tutur. Kənddə qoyub gəldiyi oğlunun öldüyünü güman edir. Müharibə qurtarandan sonra kəndə qayıdır. Yazıçı obrazın düşüncələrini, hisslərini, həyəcanlarını ustalıqla qələmə alır.

Hekayədə təsvir olunan başqa bir surət isə atılmış uşağı oğulluğa götürüb böyüdən dərzi Badsəba xanımdı. Badsəba mərd və alicənab qadındır. Qayğısını çəkib səkkiz yaşa çatdırdığı, məktəbə göndərdiyi Həsrətdən üçün Mehriban və layiqli bir anadı. Buna onun tam mənəvi-maddi haqqı vardı. Usta sənətkar bu məqamda uşağın taleyi ilə bağlı mətlələbləri, analıq təbiətinin mahiyyətini dərindən təhlil edir, hadisələrin real mənzərəsini çəkir, mənəvi, hüquqi, pedaqoji amillərdən düşündürücü söhbət açır. Belə bir fikri daha qabarıq, aydın şəkildə nəzərə çatdırır ki, “Ana böyük, təmiz, müqəddəs bir addır. Ana olan övladı üçün hər cür iztirab və məhrumiyyələrə dözməlidir. Yalnız özü üçün deyil, həm də övlad üçün, ictimai tərbiyə üçün yaşamalıdır!..” [7, s. 332]. Bu məlum həqiqəti bildirməklə kifayətlənməyən ədib konkret psixoloji təhlilə keçir. Hər birinin öz aləmində müəyyən əsası və sübutu olan anaların analıq haqqı üzərində dayanaraq iclasçıların dili ilə deyir: “Birinci ona görə haqlı idi ki, Nazilə çox əzab, əziyyət çəkib. Dava vaxtında, iki-üç yüz qram qara çörək verilən zamanda atasız, anasız, ərsiz, başsız qalan 18 yaşlı bir qız nə edə bilərdi? Yaxşı ki, özünü orduya salıb, xeyirli iş görüb. Uşağını atıbsa da, cəbhəçiləri tutub, neçə-neçə yaralıları sağaldıb. İndi də doğma uşağına sahib olmaq üçün nə çətin, nə ağır mübarizələrə qatlaşmalı olub.

İkinci də ona görə haqlı idi ki, Badsəba xanım hər uşağı hər zaman götürməzdi. Yüz dəfə ölçüb-biçəndən, götür-qoy eləyəndən sonra qundaqdakı uşağa bala deyib qəbul etmişdi, illər boyu nə naz-neymət ilə böyüdüb məktəb məqamına gətirmişdi. Bütün övlad məhəbbətini, gələcək arzusunu da o girdə sifət, qaragöz uşağın başına cəmləmişdi. Birdən-birə ona: “Bu ümidindən, arzundan əl çək!” - demək ölümə bərabər, bəlkə də bir az artıq idi!” [7, s. 331].

Usta sənətkar sənətkar insan qəlbini, vicdanını dilə gətirir, hər iki qadının arzu və istəyini üzə çıxarır, həqiqəti əks etdirən fikirlər söyləyir. O, uşağın taleyi, analıq haqqı ilə əlaqədar mətləbin çox incə bir cəhətini xüsusi diqqətə çatdırır. Həsrət doğulandan Badsəbanı və Əsgəri görmüş, onların qayğısı ilə bu böyümüş, onlara bağlanmışdı. Odur ki, Həsrətə birdən-birə “bunlar sənin öz ata-anan deyil” demək onun bütün həyatını, sevincini, inamını alt-üst etmək idi. Şübhəsiz, ananın balasını atmasına heç bir səbəb və dəlillə bəraət qazandırmaq olmaz. Bu, böyük qəbahət, bağışlanmaz günahdı. Nazilə də haqq qazandırla bilməyən günah işləmişdi. Lakin onun mövqeyi, fəaliyyəti, hərəkəti, duyğu və düşüncələri eyni zamanda belə bir cəhəti də aydınlaşdırır ki, o uşağını çirkin məqsədlər və ya gəzmək əylənmək, kef çəkmək xatirinə atmamışdı. Ümumiyyətlə, məsələnin qoyluşu, istiqamət və mahiyyəti yazıçı

mövqeyinin düzgünlüyünü, mənəvi-əxlaqi prinsiplərin həyatiliyini, ictimai-bədii nəticələrin reallığını təsdiqləyib əsaslandırır.

Mir Cəlalın nəciblik, gözəllik, humanizm duyğuları aşılayan, insan mənəviyyatını saflaşdıran və zənginləşdirən "Nazik mətləb" hekayəsinə nəzər salaq. "Nazik mətləb" hekayəsində "odlu həvəs və uca bir idealla" kəndə gələn cavan müəllimin hər dəfə sinfə girərkən xoş həyəcanlar keçirməsi, şagirdlər qarşısında dərin məsuliyyət daşıması, qəlbinin arzusu, hərarəti, həsrəti təbii təsir bağışlayır. Sinif yoldaşları arasında fərqlənən, gözəl və ağıllı Zivərə cavan müəllimin qəlbində güclü sevgi hissi baş qaldırır. Müəllif göstərir ki, müəllim çətinə düşüb, "vəzifə ilə arzu, şüur ilə hiss" arasında qalıb. Əgər o, ehtiyatsız hərəkət edərsə, "qeyri-adi" münasibəti dərinləşdirib qəlbini şagirdinə açardısa camaat arasında hörmətdən düşə, etibar və nüfuzunu itirə bilərdi. Gənc tərbiyəçi vətəndaşlıq borcuna sadiq qalmaq, müəllimlik şərəfini uca tutmaq, vəzifə ləyaqətini qorumaq üçün iş yerini dəyişmək qərarını həyata keçirir.

Mir Cəlalın əxlaqi-mənəvi problemlərdən bəhs edən hekayələrindən biri də "Elçilər qayıtdı" əsəridir. Müəllif Şərabanı xalanı, nəvəsi Nəcibəni, elçiliyə gələnləri psixoloji cəhətdən canlı kamil surətlər kimi original fərdi detallarla canlandırmışdır. Gözlərimiz önündə çalışqan, ağıllı və gözəl Nəcibənin xarakterini səciyyəvi ştrixlərlə canlandırmışdır. Şərəbanı xalanın da xarakteri təbii yolla açılır. Şərabanı xala xadimə işlədiyi institutda dəfələrlə müdafiə məclislərinin şahidi olmuş, xoş-ürəkacan təntənələr görmüş, tədricən belə bir qənaətə gəlmişdi ki, Nəcibənin də nişanlısı "dissertasiya sahibi" olsa yaxşıdı. Şərabanı xalanın belə bir fikrə düşməsi, elçiliyə gələnlərdən oğlanın "zaştası varmı?" deyə xəbər alması hər şeydən əvvəl bu cəhətlə əlaqədardı. Müəllif məsələni bədii vasitəyə, zəruri təfərrüata çevirərək Şərabanı xalanın niyyətini, səciyyəsini aydınlaşdırdığı kimi, müdafiə hadisəsinin təşkili və mahiyyətinə dair bəzi tənqidi mülahizələrini də söyləyirdi.

"Vəkil olmaq, başqa bir adamın işinə, əsərinə, zəhmətinə vəkalət eləmək əslində məsul, çətin işdir. Dövlət işinə, elm işinə vəkil olmaq isə daha çətin vəzifədir. Bu cavan qız Həsənova Mənzər ali təhsildən sonra illər uzunu zəhmət çəkib geniş bir əsər yazmış, alimlər məclisinə təqdim etmişdir. Məclisin rəisi də müzakirədən əvvəl həmin əsər haqqında əsas rəy deməyi mənə həvalə etmişdir. Mən çox çətin bir vəzifə qarşısında idim" [10, s. 144]. Ədəbiyyatşünas alimin dili ilə deyilən bu sözlərdən sonra məsələ real şərait daxilində konkret şəkildə açılıb aydınlaşırdı. Əsərdə göstərilir ki, gənc aspirant Mənzər dissertasiyasını "tamamlamış, səliqə ilə cildlətmiş, elmi şuranın müzakirəsinə təqdim etmək təşəbbüsündədir. Bəzi "xeyrxahlar" da müsbət rəy vermiş, əsəri müdafiəyə layiq görmüşlər. Lakin nüfuzlu, mötəbər, yüksək dərəcəli alimin fikiri daha əsas və zəruridir. Müəllif həmin alimi elmi ürəkdən sevən, onun inkişafı qayğısına qalan ağıllı və təşəbbüskar bir adam kimi təqdim etmişdir. Nəcib, humanist alim səviyyəsi aşağı olan, xalqa, cəmiyyətə fayda verməyən əsər haqqında müsbət rəy söyləməyi vicdanına sığışdırmır. Bununla bərabər, Mənzərin dissertasiyasını oxuduqdan sonra qənaətini açıq bildirməkdə də tərəddüd edir. Obyektiv olmağa çalışan, elmin şərəfini qorumağı, gözləməyi zəruri sayan alim çətinə düşən kimi üçüncü tədbirə əl atır ki, bu da bir növ güzəştə getmək, "xeyirxahlıq" hissinə qapılmaq kimi görünür. Həmin "tədbirin mahiyyətini o, izah edərək deyirdi: "Belə hallarda mən... müəllifi yanıma çağırır və ikilikdə ona danışırdım:

- Əzizim, sənin yazdığın bir əsər deyil, dediyin məqsəd üçün də yaramaz, bunun vəkalətini mən öhdəmə ala bilmərəm. Ancaq mən bu fikrimi aşkara salmaq, səni ad almaqdan məhrum eləmək niyyətində deyiləm. Ona görə də bir daş altdan, bir daş üstən. Nə sən bu əsəri bura gətirmisən, nə də mən bunu oxumuşam. Apar bacarırsansa, başqa alimlərlə müdafiəni keçir, Allah xeyir versin! Mən bu əsər barədə heç yerdə, heç bir söz deyəsi deyiləm. Mən oxumamışam, xəbərim də yoxdur. Müdafiə şurasına da gəlmərəm. Vəssalam!" [10, s. 148].

Əlbəttə, bu cür hislərlə yaşayan və mahiyyət etibarilə ümumi işə müəyyən ziyan gətirən alimlər də vardır. Onların belə "xeyirxah" niyyət və təşəbbüsləri tənqidə layiqdir. Güman etmək olardı ki, hekayədə həmin sözlər müsbət surətin dili ilə deyilsə də, məhz "xeyirxah" alimlərə qarşı yönəldiləcək, tənqidi ruh və məqsəd daşıyacaqdı. Ancaq belə olmur. Müsbət planda təqdim edilən alim həmin sözləri yenidən təkrar edir, eyni məzmunda aspirant Mənzərə bir də deyir. Bu, onun humanizmini kölgələndirir, hərəkətlərindəki obyektivlik və prinsipiallığı zəiflədir.

Hekayənin axırlarına doğru hiss edirik ki, alim həmin sözlərlə Mənzərə, onun kimilərə təsir göstərmək niyyətində olmuşdu. Bununla belə, o, həmin sözləri nəinki demiş, hətta bir neçə dəfə "üçüncü tədbirə" əl də atmışdı. Mənzər vəziyyətlə kor-korana razılaşmır. Çünki bütövlükdə həqiqətpərəst, gözüaçıq, zəhmətkeş və təşəbbüskar bir qızdı. Ali təhsil alanda, aspirant olanda "tərif və güzəştlər" Mənzəri çaşdırmışdı. İndi o, səhvini dərk edir və nəticə çıxarır. Hekayənin süjetində bu məsələ xüsusi nəzərə çatdırılır. Hekayədə göstərilir ki, alimin elmi məsləhətləri və faydalı göstərişləri əsasında Mənzər dissertasiyasını yenidən işləyərək onu kamilləşdirir və xəcalət çəkmədən müdafiə edir. Cəmiyyətdə bir növ dəb halını almış dissertasiya müdafiəsi məsələlərinə ədib tənqidi münasibətini müdrik yumor vasitəsilə çox sərrast ifadə edə bilmişdir.

Ədib hər hansı bir mənfi hadisəni və ya insanı ictimai tərbiyə vasitəsinə çevirmək istədikdə onu bədii təfəkkür süzgəcindən keçirib real şəkildə oxucuya təqdim etməyə çalışırdı. Ədibin "Subaylıq fəlsəfəsi" adlı hekayəsində mənəvi-əxlaqi, ictimai-tərbiyəvi bir prosesə, əsasən, iki mənfi surətin mühakiməsi, hərəkət və vəziyyətləri vasitəsilə toxunulur. Satirik və lirik motivlərlə zəngin süjet daxilində sadə həyat həqiqəti fəlsəfi ruh və bədii incəliklə mənalandırılır. Ağıl, düşüncə və xasiyyətcə bir-birinə yaxın olan iki "filosofun" həyata baxışı, ailəyə münasibəti məharətlə əks etdirilir. Onlara görə, "subaylıq soltanlıqdır", evlənmək "başa əngəl", "ayağa buxov" deməkdir. "Beş günlük dünyada kef çəkmək üçün "azad" və "sərbəs" yaşamaq lazımdır. Bu "filosoflar" subaylığı özlərinin əsl "həyat fəlsəfəsi" sayırlar. Həmin "fəlsəfə" mahiyyət etibarilə təzə olmasa da, orijinal şəkildə işlənmiş iki mənfi surətin xarakterini açmağa xidmət edir. Hər iki şəxsin mənasız keçən ömrünün cavanlıq və qocalıq dövrü real təzadlar,

psixoloji detallar, satirik və lirik boyalarla səciyyələndirilərək evlənməyi faciə sayanların faciəsini əks etdirir. Mir Cəlal "subaylıq fəlsəfəsi"nin mahiyyətini açmaqla əxlaq normalarını pozanları mühakimə edir, mənfiliklərə qarşı mübarizə ruhunu, həyatın qədrini bilmək, onu gözəlləşdirmək, insana layiq mənalı ömür sürmək fikrini aşılayır.

**Nəticə**. Mir Cəlalın hekayələrindəki surətlər və hadisələr ilk növbədə bəhs olunan zaman üçün səciyyəvilikləri ilə diqqəti cəlb edir. Ədib kiçik bir sujet əsasında müəyyən ictimaj mətləbləri,xüsusən tənqidi məsələləri böyük məharətlə ümumiləşdirmələr əsasında ictimaiyyətin müzakirəsinə verir. Tənqidi gülüşün müxtəlif formaları ədibin hekayələrində çox fəal iştirak edir. Xüsusilə, sərrast yumor onun hekayələrində aparıcı yer tutur. Mir Cəlal hekayələrində tipik şərait,tipik bədii portret geniş yer tutur. Yığcamlıq,lakonizm ədibin təhkiyəsində aparıcıdır. Mir Cəlal hekayələrimdə müasirlik,aktuallıq əsasdır. O, kiçik bir sujet və bir neçə surət əsasında zəmanəsinin ciddi ictimai problemlərindən bəhs edir, müdrik nəticələr çıxarır.

**İstifadə edilmiş ədəbiyyat**


1. Belinski V.Q. Seçilmiş məqalələr. Bakı: Uşaqgəncnəşr, 1948, 272 s.
2. Cəfərov N. Mir Cəlalın milli idealları. Bakı, 2018, 112 s.
3. Əhmədov T. Mir Cəlal: həyatı, mühiti, ədəbi, elmi və pedaqoji fəaliyyəti. Bakı: Nurlar, 2005. 193 s.
4. Eminov A. Mir Cəlalın poetikası. Bakı: Araz, 2011, 178 s.
5. Makarenko A.S. Seçilmiş pedaqoji əsərləri. Bakı: Azərbaycan məktəbi, 1950, 440 s.
6. Məmməd A. Seçilmiş əsərləri üç cilddə, I cild, Bakı, Azərbaycan SSR EA Nəşriyyatı, 1967, 619 s.
7. Paşayev M.C. İnsanlıq fəlsəfəsi. Bakı: Azərnəşr, 1961, 406 s.
8. Paşayev M.C. Seçilmiş əsərləri. Bakı: Şərq-Qərb, 2005, 384 s.
9. Paşayev M.C. Sənət və həqiqət. "Ədəbiyyat qəzeti". 30 iyun 1945-ci il.
10. Paşayev M.C. **Gülbəsləyən qız**. Bakı: Azərnəşr, 1965, 334 s.
11. Salamoğlu T. Mir Cəlal nəsri və müasirlik. Bakı: Orxan, 2018, 136 s.



**Key words:** Mir Jalal, story, education, spiritual and moral values

**Ключевые слова:** Мир Джалал, повесть, образование, духовно-нравственные ценности


## SPIRITUAL AND MORAL IDEAS IN MIR JALAL'S STORIES


**Summary**

In Mir Jalal's work, modernity, active intervention in real life with high artistry is the main and leading factor. Most of his works were a direct expression of vivid observation and great impression. In the Azerbaijani story of the 1930s, the wide range of topics, in turn, gave rise to the variety of forms. As a result of this, a number of valuable examples of satirical, romantic and lyrical stories were created in Mir Jalal's work. Taking the subject of his works from modern life, Mir Jalal exposed the ugliness, immorality and crookedness of the society. The main core of Mir Jalal's stories are spiritual and moral problems. In the work of the writer, the story is the leading genre. The richer the author's stories are, the wider the subject area, the more colorful the world of images there.


## ДУХОВНО-НРАВСТВЕННЫЕ ИДЕИ В РАССКАЗАНИЯХ МИРА ДЖАЛАЛА


**Резюме**

В творчестве Мир Джалала главным и ведущим фактором является современность, активное вмешательство в реальную жизнь с высоким артистизмом. Большинство его работ были прямым выражением яркого наблюдения и большого впечатления. В азербайджанской повести 1930-х годов широкий диапазон тем, в свою очередь, породил разнообразие форм. В результате этого в творчестве Мир Джалала создан ряд ценных образцов сатирических, романтических и лирических рассказов. Взяв тематику своих произведений из современной жизни, Мир Джалал обнажил уродство, безнравственность и порочность общества. В основе рассказов Мир Джалала лежат духовно-нравственные проблемы. В творчестве писателя повесть является ведущим жанром. Чем богаче рассказы автора, чем шире предметная область, тем красочнее мир образов в них.


**RƏYÇİ: dos. L.Ələkbərova**